**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№288/8** **30 iyun 2017-ci il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının 2017-ci il üzrə iş planının 6.1-ci "Auditin aktual problemləri üzrə konfransların, simpoziumların, "dəyirmi masa"ların və seminarların təşkili" bəndinin icrasına dair Plan-proqramdan 8-ci "Dempinq və haqsız rəqabətə qarşı mübarizəyə dair tədbirlər sistemi" mövzusunda "dəyirmi masa" bəndinin çıxarılması barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2017-ci il üzrə iş planının 6.1-ci "Auditin aktual problemləri üzrə konfransların, simpoziumların, "dəyirmi masa"ların və seminarların təşkili" bəndinin icrasına dair Plan-proqramdan 8-ci "Dempinq və haqsız rəqabətə qarşı mübarizəyə dair tədbirlər sistemi" mövzusunda "dəyirmi masa" bəndinin çıxarılması barədə Auditin hüquqi təminatı və standartlaşdırma idarəsinin rəisi M.Abbasovun məlumatını müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Auditorlar Palatasının 2017-ci il üzrə iş planının 1.17-ci "Dempinq və haqsız rəqabətə qarşı mübarizəyə dair tədbirlər sisteminin işlənib hazırlanması və tətbiqi üzrə" Plan-proqramın 1-ci "Palata Şurası adından auditor təşkilatlarını və sərbəst auditorları auditor xidməti bazarında dempinqə və haqsız rəqabətə qarşı mübarizəyə səsləyən müraciətin hazırlanması və onların nəzərinə çatdırılması" bəndinə əsasən müraciətin hazırlandığı və auditor təşkilatlarına və sərbəst auditorlara göndərildiyi, 2-ci "Auditorlar Palatasının Şurası yanında Dempinq və haqsız rəqabətə qarşı mübarizə üzrə komitənin yaradılması" bəndinin icrası ilə əlaqədar olaraq Palata Şurasının 2016-cı il 21 dekabr tarixli 283/5 nömrəli qərarına əsasən Auditorlar Palatasının Şurası yanında Dempinqə və haqsız rəqabətə qarşı mübarizə üzrə komitənin yaradıldığı, 4-cü "Auditor xidməti bazarında haqsız rəqabətin əlamətlərinin işlənib hazırlanması" bəndinin icrasına əsasən "Auditor xidməti bazarında haqsız rəqabətin əlamətləri"nin hazırlanaraq Palata Şurasının 2017-ci il 31 yanvar tarixli 285/5 nömrəli qərarı ilə təsdiq edildiyi və Plan-proqramın 6-cı "Auditorlar Palatasının üzvləri arasında dempinq və haqsız rəqabətin yolverilməzliyi barədə bağlanacaq partnyorluq sazişinin layihəsinin və tətbiqi mexanizminin hazırlanması" bəndinin icrasının noyabr ayına keçirildiyi nəzərə alınsın.
2. Bu qərarın 1-ci bəndində qeyd olunanları nəzərə alaraq iş planının 6.1-ci "Auditin aktual problemləri üzrə konfransların, simpoziumların, "dəyirmi masa"ların və seminarların təşkili" bəndinin icrasına dair Plan-proqramdan 8-ci "Dempinq və haqsız rəqabətə qarşı mübarizəyə dair tədbirlər sistemi" mövzusunda "dəyirmi masa" bəndinin çıxarılması məqsədəmüvafiq hesab edilsin.
3. Bu Qərarın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**